DÜNYA

Ukrayna bu həftə müttəfiqləri ilə görüşlərə hazırlaşır

Noyabr 16, 2026



Ramştayn aviabazasında Ukraynanın Müdafiəsi üzrə Təmas Qrupunun toplantısı. 2025

Ukrayna prezidenti **Volodimir Zelenski**nin hökuməti bu həftə iki mühüm görüşə hazırlaşır. Əvvəlcə "Ramştayn qrupu"nun, daha sonra isə "İstəklilər koalisiyası"nın toplantısı keçiriləcək.

Zelenski noyabrın 15-də axşam videomüraciətində "Ramştayn" toplantısından nəticə gözlədiyini bildirib: **"Bu, Rusiyaya güclü siqnal olacaq – Ukraynanın dəstəksiz qalmayacağına dair bir siqnal".**

Ukraynanın Müdafiəsi üzrə Təmas Qrupunun ("Ramştayn qrupu") toplantısı noyabrın 17-də Brüsseldə baş tutacaq. Bu qrup Qərb müttəfiqlərinin Ukraynaya göstərdiyi hərbi yardımı əlaqələndirir.

"Tarixi əhəmiyyətli ola biləcək görüş"

Zelenski deyib ki, Kiyevin əsas prioriteti ölkənin hava hücumundan müdafiəsini gücləndirmək, o cümlədən əlavə "Patriot" raketləri və sistemləri, eləcə də NASAMS (Norveçin təkmilləşdirilmiş zenit-raket sistemi) əldə etməkdir. O, kəşfiyyat məlumatlarına əsaslanaraq Rusiyanın yeni zərbələr hazırladığını söyləyib.

"İstəklilər koalisiyası"nın toplantısı isə Berlində keçiriləcək. Zelenski bu tədbiri "tarixi əhəmiyyətli ola biləcək görüş" adlandırıb.

Toplantıya Almaniya kansleri **Fridrix Merts**, Fransa prezidenti **Emmanuel Makron** və Böyük Britaniyanın baş naziri **Endi Börnhem** həmsədrlik edəcəklər.

"İstəklilər koalisiyası" 2025-ci ilin əvvəlində Kiyevə yardım göstərməyi və atəşkəs əldə olunacağı halda çoxmillətli sülhməramlı qüvvələrdə mümkün iştirakı nəzərdə tutan ölkələrin yaratdığı qeyri-rəsmi birlikdir.

Merts toplantıda 20-dən çox dövlət və hökumət başçısının iştirakının gözlənildiyini bildirib. Onun sözlərinə görə, məqsəd Ukraynanın 2027-ci ildə müdafiəsinin maliyyələşdirilməsini təmin etmək və qarşıdakı sülh danışıqları ilə bağlı vahid mövqeyə gəlməkdir.

Koalisiya təlimlər keçirir

Noyabrın 9-da koalisiya Ukraynada müharibədən sonrakı mümkün dövrə hazırlıq məqsədilə ilk hərbi təlimlərinə başlayıb.

Təlimlərə 11 ölkədən təxminən 3 min hərbçi cəlb olunub. Əsas məqsəd müharibəyə son qoyacaq atəşkəs razılaşması əldə edildikdən sonra sülhün qorunması mexanizmlərini sınaqdan keçirməkdir.

Fransa və Böyük Britaniyanın rəhbərlik etdiyi təlimlər Polşada, Rumıniya üzərindəki hava məkanında və Qara dənizin qərb hissəsində keçirilir. Təlimlər noyabrın 22-dək davam edəcək.

Moskva bu təlimləri sərt tənqid edərək, koalisiyanı Rusiya ilə müharibəyə hazırlaşmaqda ittiham edib.

Bu arada Rusiya və Ukrayna qarşılıqlı zərbələri davam etdirib.



Krım körpüsü

Krım körpüsünə zərbə endirilib, hərəkət məhdudlaşdırılıb

Noyabrın 16-na keçən gecə Ukrayna dronları Rusiyanın Rostov vilayətinə hücum edib. Azov şəhərində üç nəfər yaralanıb. Vilayət qubernatoru **Yuri Slyusar**ın sözlərinə görə, Azovda ümumilikdə dörd istehsalat obyektində yanğın baş verib.

Ukraynanın "Exilenova+" və "Supernova+" monitorinq kanalları Azovda neft bazasının yandığını yazıblar.

Rusiyanın ilhaq etdiyi Krıma başçı təyin etdiyi **Sergey Aksyonov** Krım körpüsünə zərbə endirildiyini təsdiqləyib. Bundan əvvəl Telegram-kanallar yerli sakinlərə istinadla körpüyə hücum olduğunu xəbər vermişdilər.

Körpü üzərində nəqliyyatın hərəkəti məhdudlaşdırılıb, Kerç şəhərində operativ qərargah yaradılıb.

Moskvanın meri **Sergey Sobyanin** isə paytaxta yaxınlaşan 191 dronun vurulduğunu bildirib.

Rusiya Müdafiə Nazirliyi bir sıra vilayətlər, eləcə də Azov və Qara dənizlərin akvatoriyaları üzərində Ukraynaya məxsus 1336 dronun zərərsizləşdirildiyini açıqlayıb.

Rusiya da Ukraynanın bir sıra vilayətlərinə hücum edib, ölən və yaralananlar var.

Noyabrın 16-da səhər saatlarında Rusiya ordusunun Dnepr şəhərinə təkrar zərbə endirməsi nəticəsində bir nəfər həlak olub, üç nəfər yaralanıb.

Rusiya dronları Dnepropetrovsk vilayətinin altı rayonuna təxminən 20 dəfə hücum edib. Dnepr şəhərində nəqliyyat infrastrukturu, fərdi yaşayış evləri və çoxmənzilli binalar zədələnib, bir qadın xəsarət alıb.

Dnepropetrovsk, Zaporojye və Vinnitsa vilayətlərinə endirilən zərbələr nəticəsində də xəsarət alanlar var. Zaporojyedə bir nəfər həlak olub, dörd nəfər yaralanıb.

Kiyev Rusiyanın ötən gecə Ukraynaya 158 dron buraxdığını bildirir.

Buna da bax:

Putin Trampın elçilərinə: 'Avropa nə istədiyini aydınlaşdırmalıdır – sülh, yoxsa müharibə'

Tramp müharibədən sonra Ukraynanın 'formasının bir az dəyişə biləcəyini' deyir

Əbu-Dabidə Ukrayna danışıqları başlayır: Dönüş olmayacağının 5 səbəbi

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur